# Gənc yazıçının kitablarının təqdimatı

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi-nin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının "Şuşa" zalında Yasamal rayon 225 №-li tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, yazıçı, şair, məktəbin nəzdində Kiçik Akademiyanın rəhbəri Zenfira Nusalovanın "Xəyallardan gerçəkliyə", "Səndə gözəlləşən həyat", "Aforizmlər" kitablarının təqdimatını keçirib.**

Bu barədə verilən məlumata görə, tədbirdə tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi, Yasamal rayon MKS-nin direktoru Lətifə Məmmədova qeyd edib ki, Zenfira Nusalova tanınmış və istedadlı müəllim, peşəsini və şagirdlərini çox sevən insandır. Öz peşəsinin vurğunu olmaqla yanaşı, gələcək nəslin əsl vətəndaş kimi yetişməsində onun zəhməti böyükdür. Zenfira Nusalova üç kitabın müəllifidir. "Səndə gözəlləşən həyat" kitabının layihə rəhbəri millət vəkili Cavanşir Feyziyevdir. Cavanşir müəllimin rəhbərliyi ilə həyata keçirilən layihələr əsasında nəşr olunan kitablar oxucuların masaüstü kitablarına çevrilib. Lətifə Məmmədova yazıçıya Fəxri oxucu diplomunu təqdim edib.





Kitabın redaktoru, şair-publisist, Prezident mükafatçısı Nəçibə İlkin bildirib ki, Zenfira xanım mənəvi azadlığı hər şeydən üstün tutur, həyatı bizə yenidən anladır, özgüvənimizdən, həyata olan bağlılığımızdan söz açaraq, həyatı o qədər gözəl təsvir edir ki, bəzən həyatdan aldığımız zərbələri də unuduruq. Müəllif şagirdlərə savad öyrətməklə yanaşı, onları şəxsiyyət kimi də yetişdirir.

Milli Məclisin deputatı Vüqar İskəndərov vurğulayıb ki, dünyanın xaotik və gərgin bir zamanında bu cür kitablar bizi özümüzə qaytarır.

Tədbirdə çıxış edənlər kitablar haqqında fikirlərini bölüşüb, müəllifə uğurlar arzuladılar.

Mərasimdə Zenfira Nusalova tədbir iştirakçılarına minnətdarlığını bildirib və özünün "Möcüzə qadın" və "Düşüncələr" şeirlərini söyləyib.

Tədbirin bədii hissəsində AMEA Folklor İnstitutunun əməkdaşı, respublika və beynəlxalq müsabiqələr laureatı, bədii qiraətçi, aktrisa Həlimət Sultan "Dünya səndən kimlər keçdi?" bədii-musiqili kompozisiyanı təqdim edib. Aktrisaya M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Diplomu təqdim olunub.

**M.MUSTAFA,**
**"Respublika".**

Respublika .- 2025.- 20 iyul (№ 148).- S.10.